# RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASI MÜASİR MƏRHƏLƏDƏ

**MƏMMƏDOV M.Ə.**
***Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***m.mehmanali@gmail.com***

*Elmi məqalədə Respublika Elmi-Texniki Kitabxanasında (RETK) son illərdə baş verən dəyişikliklər, kadr təminatı, maddi-texniki təchizatı və digər məsələlər haqqında məlumat verilmişdir. Burada həmçinin mövcud kataloq və kartoteka sistemi haqqında qısa izahat verilmiş və kitabxananın elektronlaşdırılması sahəsində gördüyü işlərə aydınlıq gətirilmişdir.*

***Açar sözlər:*** *Respublika Elmi-Texniki Kitabxanası, Əqli Mülkiyyət Agentliyi, elektron kataloq, elektron resurs bazası*

Məlumdur ki, dünya ölkələrində, o cümlədən respublikamızda kitabxanalar mütaliənin təşkilatçısı kimi fəaliyyət göstərən əsas sosial institutlardan biridir. Belə kitabxanalardan biri də Respublika Elmi-Texniki Kitabxanasıdır. 1923-cu ildə əsası qoyulmuş və 1930-cu ildə Neftçilər klubunun bazasında yaradılmış Azneftin Mərkəzi Texniki Kitabxanası 1957-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət və Texnika Komitəsinin nəzdində Respublika Elmi-Texniki Kitabxanasına cevrilmişdir.

Respublika Elmi-Texniki Kitabxanası (RETK) respublikanın nazirlik, şirkət, idarə və müəssisələri, elmi-tədqiqat və layihə institutlarına, eləcə də elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı şəxslərə, ali məktəb tələbələrinə məlumat biblioqrafiya və kitabxana xidməti göstərən respublika mərkəzi hesab edilir.

RETK respublikanın ən böyük kitabxanalarından biri olmaqla yanaşı ənənəvi kitab təbliği və kitabxana biblioqrafiya xidməti, həmçinin müəllif şəhadətnamələrı və patent ədəbiyyatı, normativ texniki sənədlər, xarici ölkələrin jurnalları və s. əks etdirən elmi tədqiqat və metodik fəaliyətlə məşğul olan böyük müəssisədir. Kitabxanalarda fəaliyyət göstərən şöbələrə aşağıdakıları aid etmək olar:

1.İnzibati və təsərrüfat şöbəsi;
2.Komplektləşdirmə şöbəsi;
3.Elmi kitabişləmə şöbəsi;
4.Oxuculara xidmət şöbəsi;
5.Depozitar və mübadilə fondu;
6.Xarici ədəbiyyat şöbəsi;

7.Elmi metodiki şöbə;
8.Differensial məlumat xidməti və tədqiqat işləri şöbəsi;
9.Məlumat biblioqrafiya şöbəsi;
10.İnformasiya texnologiya şöbəsi;
11.Respublika elmi patent fondu;
12.Normativ texniki sənədlər fondu;

RETK-da Respublika patent fondu 1967-ci il, Normativ texniki sənədlər fondu 1969-cu il, Depozitar və mübadilə fondu isə 1974-cü ildə təşkil olunmuşdur.

RETK-nın fondlarında ictimai-siyasi ədəbiyyat, elmi-texniki, sorğu ədəbiyyatı, informasiya xarakterli ədəbiyyat, dərslik və metodik materiallar, dövrü və ardı davam edən nəşrlər, təcrübə konstruktor işləri, tərcümələr, sənaye kataloqları, normativ texniki sənədlər, ixtiralar, ixtiraçılıq, patent hüquqları haqqında ədəbiyyat, patentlər mətbuatda dərc olunmayan sənədlər qorunub saxlanılır. RETK-da istifadə olunan kataloq və kartotekalar sisteminə aşağıdakılar daxildir:

Baş əlifba kataloqu; rus və Azərbaycan dilində sistemli kataloq; sistemli kataloq üçün əlifba predmet göstəriciləri kataloqu; yeni kitablar kataloqu; baş məlumat kartotekası; dövrü nəşrlər kataloqu; məxfi xidmət növünə aid edilən ədəbiyyatın kataloqu; avtoreferat və dissertasiyaların kataloqu; ardı davam edən nəşrlərin kataloqu. Bunlarla yanaşı kitabxanada digər xüsusi kataloq və kartotekalar da mövcuddur.

RETK respublika miqyasında kitabxana işinə dair bütün tədbirlərdə iştirak edir. RETK Açıq Cəmiyyət-Azərbaycan İnstitutunun üzvüdür.

Qeyd edilməlidir ki, RETK 2002-ci ilə kimi Elm vəTexnika Komitəsinin tərkibində fəaliyyət göstərmişdir. 2002-ci ildə isə Dövlət Elm və Texnika Komitəsi ləğv olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 oktyabr tarixli 799 nömrəli fərmanına əsasən, ləğv olunmuş bu komitənin bazasında Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin yaradılması haqqında Əsasnamə qəbul edilərək, icrası Nazirlər Kabinetinə tapşırılmış və sonra isə Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 2008-ci il tarixli sərəncamı ilə Dövlət Agentliyinin əsasında Standartlaşdıma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə çevrilmişdir. RETK 2018-ci ilə kimi bu komitənin tərkibində fəaliyyət göstərmişdir. Hal-hazırda isə kitabxana Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul 222 nömrəli fərmanına əsasən Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilmişdir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2018-ci il 222 nömrəli fərmanı təsdiq edilmişdir. Bu fərmanda uyğun olaraq Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər





tutaraq, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin fəaliyyətini təmin etmək məqsədilə qərara alınmışdı:

1. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi təşkil edilsin;
2. Aşağıdakılar Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilsin.
3. Ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası;
4. Bir ay müddətində Respublika Elmi-Texniki Kitabxanasının əsasnaməsini və strukturunu, həmçinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçilərinin say həddini təsdiq etsin

Prezidentin fərmanına uyğun olaraq Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi Texniki Kitabxanasının əsasnaməsi 2018-ci ildə təsdiq edilmişdir.

Əsasnamənin 4-cü maddəsi RETK-nın təşkilidir və bu aşağıdakı qaydada öz əksini tapmışdır;

- fondun təkmilləşdirilməsini təmin edir.
- yerli və beynəlxalq kitab mübadiləsini həyata keçirir.
- çap nəşrlərinin ümumi və fərdi uçotunu aparır
- ədəbiyyatı elmi və texniki cəhətdən işləyir
- fondu kataloqlaşdırır

Əsasnamənin 7-ci maddəsini RETK-nın strukturu və maliyyələşdirilməsi təşkil edir:

– RETK-nın strukturu və ştat cədvəlləri Agentliyin İdarə Heyətinin sədri tərəfindən təsdiq edilir.

- RETK-nın fondunu yeni nəşrlərlə komplektləşdirmək, beynəlxalq və respublikadaxili kitab, elm və texnika sahəsində ədəbiyyat, patent ədəbiyyatı, normativ texniki sənədlər mübadiləsini həyata keçirmək məqsədilə mübadilə fondu büdcə hesabına maliyyələşdirilir.

- RETK hüquqi şəxsdir, onun möhürü, künc ştampı vardır və müvafiq bank hesablarına malikdir.

- Agentlik kitabxananı bina, surətköçürmə və çoxaltma texnikası, komputer, nəşriyyat və cildləmə avadanlıqları ilə təmin edir.

- Hazırda Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 sentyabr 2018-ci il 379 nömrəli qərarı qəbul edilmiş və aşağıdakı bəndlər qeyd edilmişdir:

1. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi Texniki Kitabxanasının işçilərinin say həddi 126 vahid təsdiq edilsin;

2. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etsinlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Respublika Elmi Texniki Kitabxanası "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanunlarını və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, qərar, əmr, sərəncam və göstərişlərini, Əsasnamə və Nizamnaməsini rəhbər tutaraq öz fəaliyyətini davam etdirərək iş planında nəzərdə tutulmuş işləri yerinə yetirir. Qeyd edildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2018-ci il tarixli 222 nömrəli fərmanına əsasən Respublika Elmi-Texniki Kitabxanası Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilmişdir. Agentlik rəhbərliyinin göstərişi ilə 13 sentyabr 2018-ci il tarixindən başlayaraq Kitabxana və onun tərkibində olan Respublika Patent Fondu, Normativ-Texniki Sənədlər Fondu və Depozitar fondu şəhərin müxtəlif ünvanlarında yerləşdiyi yerdən bir ünvana – Bakı şəhər Mərdanov qardaşları 124 ünvanına köçürülməyə başlamış və bu proses artıq başa çatmışdır.

RETK-nın şöbələri içərisində informasiya texnologiyaları şöbəsinin mühüm rolu var. Belə ki, bu şöbə müəyyən obyekt və ya proses haqqında yeni məlumatların alınmasını, toplanmasını, işlənməsini, mühafizəsini və onun istifadəsini təmin edir. Şöbə həmçinin məlumat daşıyıcılarından istifadəni elektron avadanlıqların istifadəçilər arasında və şöbələr arasında bölüşdürülməsini həyata keçirir, hesabat, biblioqrafik arayış və digər lazımi sənədləri hazırlayıb şöbələrə təqdim edir. Şöbənin qarşısında duran əsas məsələlərdən biri də ilk növbədə kitabxananın elektronlaşdırılmasını başa çatdırmaqdır. Belə ki, şöbənin bu işi aktual şəkildə davam etdirilməsi nəticəsində 2016-ci ildən etibarən Respublika Elmi-Texniki Kitabxanasında İRBİS 64 – Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi (AKİS) alınmış və onun tətbiqinə başlanılmışdır. Kitabxanada İRBİS 64 AKİS-in aşağıdakı modulları fəaliyyət göstərir.

1. Web Şlyuz;
2. Kataloqlaşdırma AİY;
3. Kitabişləmə AİY;
4. Oxucu RDR AİY;
5. Kitab verilişi AİY;
6. Komplektləşdirmə AİY;

Kitabxananın RETK.az saytında yerləşən elektron kataloq bölməsi RETK-nın oxucuları üçün 24 saat ərzində fəaliyyət göstərir. Kitabxanaya daxil olan hər bir qəzet və jurnal, avtoreferat İRBİS 64 AKİS-də Kataloqlaşdırma modulunda Elektron kartoteka bazasına daxil edilir. Kitabxanaya üzv olan hər bir oxucu "Oxucu RDR" bazasında qeydiyyatdan keçirilir. Kitabxananın RETK.az saytında elektron kitablar bölməsində bəzi kitablar pdf formatda yerləşdirilmişdir. Elektron kataloqda hər ayın sonu məlumatların yeniləşməsi prosesi həyata keçirilir.





İnformasiya şöbəsi tərəfindən kitabxananın gələcək fəaliyyəti üçün yeni layihə işlənmişdir və bu aşağıdakı formada öz əksini tapmışdır:

1. Kitab fondunun, normativ texniki sənədlərin elektron kataloqa köçürülməsinin təsnifləşdirilməsi;
2. Dövrü nəşrlərin sistemin yaddaşına daxil edilməsi;
3. Şöbədə sistemin yaddaşına daxil edilmiş ədəbiyyatın seçilərək ən aktual hissəsinin skanerdən keçirərək pdf formatında işlənməsi;
4. Şöbədə xüsusi olaraq İT (informasiya texnologiyası) mütəxəssisləri qrupunun yaradılması, rəqəmsal formata salınmış ədəbiyyat və sənədlərin kitabxananın RETK.az saytında yerləşdirilməsi məsələləri;
5. Əməkdaşların elektron kataloqa daxil edilmiş biblioqrafik və analitik yazılar əsasında kitabxana saytında yerləşdirmək üçün elektron resursların toplanması və sistemləşdirilməsi ilə də məşğul olması;
6. Günün tələbinə, ölkənin daxili və xarici siyasətini, neft-qaz ədəbiyyatını, neft, energetika sahəsini əks etdirən biblioqrafik və analitik yazılar əsasında elektron resurslar və bu resurslar əsasında portallar yaradılaraq oxucuların onlayn istifadəsinə verilməsi;
7. Kitabxanada elm və texnikanın ən yeni fəaliyyətlərini əks etdirən elektron resurs bazasının yaradılması, geniş mütəxəssis qrupları daxil edilməklə həmin portalların təqdimat mərasimləri və tanıtım konfraslarının təşkil edilməsi;

Şöbənin bu istiqamətdə fəaliyyəti ilə tədricən kitabxana fondu rəqəmsallaşdırılacaqdır. Respublikanın bəzi kitabxanalarında olduğu kimi rəqəmsallaşdırılmış kitabların xüsusi fondunu yaratmaq, PDF formatında olan rəqəmsal ədəbiyyatı onlayn formatdan başqa disklərə yazıb fiziki şəkildə xüsusi yeşiklərdə saxlamaqla oxuculara xidmətin təşkil edilməsi əsas məsələ kimi qarşıya qoyulmuşdur. Hər bir oxucu həmin diskə oxu zalındakı komputerdə və yaxud özü ilə gətirdiyi noutebookunda baxa biləcəkdir.

Nəticə olaraq qeyd edilməlidir ki, Respublika Elmi Texniki Kitabxanası cari fəaliyyətində oxuculara xidmətin maksimum səviyyədə həyata keçirilməsini təmin etmək, onların kitabxanaya cəlb olunması üçün yeni xidmət üsullarını, kütləvi tədbirlərin həyata keçirilməsini planlaşdırır. Əsas məqsəd Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin göstərişinə əsasən kitabxananın müasir tələblərə cavab verən səviyyəyə çatdırmaqdr.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Respublika Elmi-Texniki Kitabxanası-70.-B.;2001.- 37 s.*
2. *Məmmədov M.Ə. Azərbaycanda texniki kitabxanaların inkişafı.- B.; 2016.-281 s.*

3. *Respublika Elmi Texniki Kitabxanası: Buklet.-B.;2000.-18 s.*
4. *Respublika Elmi-Texniki Kitabxanasının 2016-2018-ci il hesabatları*

## РЕСПУБЛИКАНСКАЯ НАУЧНО-ТЕХНИЧЕСКАЯ БИБЛИОТЕКА В СОВРЕМЕННОМ ЭТАПЕ

**МАМЕДОВ М.А.**

***РЕЗЮМЕ***

*Научная статья содержит информацию о последних изменениях в Республиканской Научно-Технической Библиотеке, о её кадровом, материально-техническом обеспечении и была дана информация по другим вопросам.* Здесь *также был представлен краткий обзор существующих систем каталогов и картотек библиотеки, а также поясняется работа, проделанная библиотекой в области электронной каталогизации.*

***Ключевые слова:*** *Республиканская Научно-Техническая Библиотека, Агентство Интеллектуальной Собственности, электронный каталог, база электронных ресурсов.*

## REPUBLICAN SCIENTIFIC AND TECHNICAL LIBRARY IS AT THE PRESENT STAGE

**MAMADOV M.A.**

***SUMMARY***

*The scientific article describes information on recent changes in the Republican Scientific and Technical Library, staffing, logistics and other issues. It also provides a brief overview of the existing catalogs and highlighted the activity of the library in the field of digitalization.*

***Keywords:*** *Republican Scientific Technical Library, Intellectual Property Agency, electronic catalog, electronic resource database*